DOI: https://doi.org/10.36719/2663-4619/92/36-41

**Ayşən Məmmədova**
Azərbaycan Dillər Universiteti
aysenmemmedova99@mail.ru

# İSTEDADLI ŞAGİRDLƏR VƏ ONLARLA PEDAQOJİ İŞİN APARILMASI

**Xülasə**

İstedad anlayışı elmi ədəbiyyatda hər zaman araşdırılmalı olan mövzulardan biri olmuşdur. Müxtəlif elm adamları tələbənin şəxsiyyətini müşahidə etmiş və öz qabiliyyətləri ilə seçilənləri istedadlı adlandırmışlar. İstedadlı şagirdlərin öyrənmə ehtiyaclarını ödəmək üçün onlarla sinifdənkənar və məktəbdaxili tədbirlər planlaşdırılmalıdır. Bu prosesdə həm məktəb rəhbərliyi, həm də valideynlər bir-biri ilə sıx əlaqədə olmalıdırlar. Onlar üçün sadə standart məktəb proqramları kifayət etməyəcək. Yeni, müasir iş üsullarından, beynəlxalq metodlardan yararlanmaq lazım gələcək. İstedadlı uşaqlarla pedaqoji işin təşkili zamanı müəllim-şagird münasibətinə xüsusi diqqət yetirilməlidir.

***Açar sözlər:*** *istedad anlayışı, istedadlı şagirdlər, müasir təhsil, təlim-tərbiyə prosesi, pedaqoji iş*

**Ayshan Mammadova**
Azerbaijan University of Languages
aysenmemmedova99@mail.ru

## Talented students and pedagogical work with them

**Abstract**

The concept of talent has always been one of the topics that need to be investigated in scientific literature. Various scientists have observed the student's personality and called those who stand out with their abilities as talented. In order to meet the learning needs of gifted students, extracurricular and in-school activities must be planned with them. In this process, both school management and parents should be in close contact with each other. Simple standard school programs will not be enough for them. It will be necessary to benefit from new, modern work methods and international methods. During the organization of pedagogical work with gifted children, special attention should be paid to the teacher-student relationship.

***Keywords:*** *concept of talent, talented students, modern education, training process, pedagogical work*

## Giriş

XXI əsrdə müasir təhsilin qarşısında yeni tələblər dayanmaqdadır və onun vəzifələri əsaslı şəkildə dəyişmişdir. Bununla bağlı təhsil sistemində bir neçə tendensiya formalaşmışdır. "Təhsil anlayışının genişləndirilməsi", "Mədəniyyətlərarası dialoqa hazırlıq", "İnsan kapitalının formalaşdırılması", "Təhsildə müəllim və şagirdlərin hüquq bərabərliyi", "Təhsildə fasiləsizliyin təmin olunması", "Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi", "Təhsildə milli-mənəvi dəyərlərin qorunub saxlanılması" beynəlxalq təhsil sistemində yaranmış ən vacib istiqamətlər hesab olunur. Bunlar təhsil prosesinə yeni pəncərədən nəzər salmağı, öyrədici, eyni zamanda tərbiyəedici mühit formalaşdırmağı ön plana çıxarır (İstedad va qabiliyyət anlayışlarının mahiyyəti haqqında, 2009: 69).

Xüsusi istedada malik şagirdlərin təhsilin ilk pillələrindən müəyyən edilməsi olduqca həssas mövzudur. Çünki onların intellektual qabiliyyətlərini araşdırmaq xeyli vaxt tələb edən prosedurdur. Əgər belə şagirdlərin aşkarlanması haqqında qərarlar qəbul olunmasaydı, çox güman ki, onlar böyük izdiham içərisində yox olardı. Bu, ölkələrin və bəşəriyyətin inkişafı üçün ağır itki olardı. İstedadlı şagirdlər həmyaşıdlarından xarakterik cəhətdən fərqləndikləri üçün onların təhsili xüsusi təlim proqramının bir parçası hesab olunur. Psixoloji meyarlar zəka və müəyyən bacarıqların

səviyyəsini ölçür. Psixopedaqoji meyarlar isə şagirdlərin fəaliyyətinə aiddir. Belə ki, qabiliyyətləri psixoloji və psixopedaqoji meyarlar vasitəsilə təyin etmək olar. XXI əsrin əvvəllərində ortaya çıxan yeni fəlsəfi baxışlar istedadın araşdırılması sahəsinə təsir göstərməyə başladı. Bir çox pedaqoq istedadlılığın idrak və ya ətraf mühitlə bağlı inkişaf etməsi haqqında irəli sürülmüş konsepsiyalardan yorulmuşdu.

Akademik cəhətdən istedadlı uşaqlar orta səviyyədən yuxarı qabiliyyətə sahib olurlar. Onlar cəsarət, nailiyyət, yaradıcılıq, yenilikçilik və yüksək motivasiyaya malik olan şagirdlər kimi müəyyən edilir. Onlar anadangəlmə potensial bacarığa sahibdir və ətraf mühit, təlim vasitəsilə optimal şəkildə inkişaf edə bilərlər. İstedadlı şagirdlər özləri haqqında müsbət mənlik şüuruna malikdir. Bu müxtəlif mülahizələrə əsaslanaraq istedadlı şagirdlər üstün qabiliyyətə malik olan və ya intellekt səviyyəsi digərlərindən yüksək olan və davamlı təlim vasitəsilə inkişaf etdirlə bilən öyrənənlər hesab oluna bilər (İstedad probleminin pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu, 2010: 20).

Amerikalı tədqiqatçı Cozef Renzulli istedadın inkişafı üçün üç amilin vacibliyini qeyd edirdi: yaradıcılıq, motivasiya və intellekt. Bunlardan ən azı birindən yüksək nailiyyət əldə edən şagird istedadlı hesab oluna bilər. Renzullinin fikrincə, iki növ - məktəbdaxili və yaradıcı-məhsuldar istedad vardır. Birinci növ istedad yüksək qiymətlər, test balları ilə nümayiş etdirilən biliklərin əldə edilməsi və testdən keçmək bacarığı ilə xarakterizə olunur. Bunun əksinə olaraq, yaradıcı-məhsuldar istedadlılıq müəyyən sahəyə, hədəfə təsir etmək üçün nəzərdə tutulmuş yeni ideyalar və məhsulların yaradılmasını bildirir. Mönks və Mason təklif edir ki, istedadla bağlı mülahizələrə dörd fərqli şəkildə yanaşmaq olar:

a) Genetik yönümlü: zəkanın fitri xüsusiyyətlərinə baxmaq;
b) Koqnitiv modellər: düşüncə prosesinə, yaddaşa diqqət yetirmək;
c) Nailiyyətyönümlü: istedadlılığın tərbiyə olunduğu öyrənmə mühitinin tədqiqi;
d) Sistemli modellər: "istedad" kontekstini yaradan iqtisadi, siyasi, mədəni və sosial dəyərlər (Barbara, 1996: 27).

Müəllimlərin qarşısında hansı şagirdin istedadlı olması, onun hansı fənndə xüsusi bacarıq nümayiş etdirməsinin müəyyənləşdirilməsi əsas məsələlərdən biridir. Bu məqsədlə standart fərqləndirici kriteriyaların olması vacibdir. Məktəbdə istedadlı şagirdlərin aşkarlanması müəyyən məqsədi olan planlaşdırılmış prosesdir. Bunun üçün müəllimlər hansı texnikalardan yararlana bilər? Bura sistematik müşahidə, həyat hekayələri, müsahibələr, obyektiv sorğu, standart testlər və s. aid edilə bilər. Ümumiyyətlə, istedadlı şagirdlərin aşkarlanmasında prinsipcə iki növ prosedur istifadə olunur: əsas və əlavə prosedurlar (Bəylərov, 2008: 17).

Birinci qrup prosedurlar şəxsi və ailə tarixçəsinə əsaslanır. Buraya sorğular, müsahibələrdən əldə olunmuş məlumatlar aiddir. Əlavə prosedurlar isə mühüm intellektual bacarıqları ölçən testlərdən ibarətdir. Testlərin tətbiqi zamanı bəzi amillər nəzərdə saxlanılmalıdır:

- heç bir halda testin həlli zamanı kömək və ya müdaxilə etməmək;
- nəticələrin məxfiliyinin qorunmasına diqqət yetirmək;
- nəticələrin valideynlərə çatdırılması;
- testin uyğun vaxtda, əlverişli şəraitdə yerinə yetirilməsi və s.

Əl Horub istedadlı şagirdləri müəyyən etmək üçün çoxölçülü model təklif etmişdir. Renzulli kimi o da psixometrik test nəticələrinin dinamik və qeyri-rəsmi qiymətləndirmələrlə birlikdə istifadəsini, eyni zamanda, valideynlər, müəllimlər və şagirdlərdən məlumat toplanılmasını irəli sürüb (Efklides, 2019: 62).

Hazırda qabiliyyəti müəyyən etmək və qiymətləndirmək üçün bir sıra üsullar mövcuddur. Bu yanaşmalar intellektual istedadı təzahür etdirməyə yönəlmişdir. Tez-tez istifadə olunan identifikasiya vasitələri ənənəvi və qeyri-ənənəvi olmaqla iki qrupa bölür.

Birinci qrupa intellekt testləri, müvəffəqiyyət testləri, Qabiliyyət imtahanları (Aptitude Tests), qiymətlər və müəllim məsləhətləri aiddir.

Qeyri-ənənəvi vasitələr qeyri-şifahi qabiliyyət testləri, yaradıcılıq testləri, portfoliolar, valideynlərin, həmyaşıdların tövsiyələrindən ibarətdir. Onlardan istifadədə əsas məqsəd yalnız yüksək istedadlıları

müəyyən etmək deyil, həm də akademik, bədii və liderlik daxil olmaqla konkret bir sahədə inkişaf etməmiş potensial nümayiş etdirən tələbələri aşkar etməkdir (Kimberly, 2005: 49).

Xüsusi istedada malik şagirdlərlə onların müəllimləri arasında olan şəxsiyyətlərarası münasibət unikaldır. Onlar əqli cəhətdən yüksək inkişaf etmiş olsalar da istedadlı uşaqların sosial-emosional inkişafı öz psixoloji yaşlarına uyğundur. Bu asinxron inkişaf istedadlı uşağın yetkinlik səviyyəsinin tez-tez idrak səviyyəsinə uyğun olması gözlənildiyi üçün böyüklərlə qarşılıqlı əlaqədə problemlər yarada bilər. Bundan əlavə, istedadlı uşaqların mükəmməliyyətçilik sindromundan əziyyət çəkmək ehtimalları var ki, bu da öz növbəsində onları müvəffəqiyyətsizliyə apara bilər. Mükəmməliyyətçilik istedadla əlaqəli bəlkə də ən çox yayılmış və eyni zamanda ən çox diqqətdən kənarda qalan xüsusiyyətdir. Bu, qabiliyyətli şagirdlərin 89 faizinə mənfi təsir göstərə bilər. Mükəmməliyyətçilik meylləri sinifdə tapşırığın başlanmasına həvəssizlik, tamamlanmış tapşırıqları gecikdirmək və ya vermək istəməmək, düzgün cavab verilmədiyi təqdirdə iştirak etmək istəməmək kimi hallarda özünü göstərir.

Çox vaxt istedadlı uşaqlar özləri və ya başqaları tərəfindən qoyulan qeyri-real gözləntiləri doğrultmaq ehtiyacında olurlar. Gözlənilən ümidləri doğrultmamaq onlar üçün müxtəlif problemlərlə nəticələnə bilər. Bu problemlər müvəffəqiyyətsizlikdən depressiyaya və digər daha ciddi şəxsiyyət pozğunluqlarına qədər dəyişir. Bütün bu deyilənlərə əsasən bizə aydın olur ki, məktəbdə müəllimlər üçün istedadlı uşaqlarla səmərəli münasibət qurmaq kritik və eyni zamanda onların qeyri-istedadlı həmyaşıdlarından daha çətindir. İstedadlı şagirdlərlə işləyən müəllimlər onların ehtiyaclarına cavab verib-vermədiyini nəzərə alaraq sinifdə qarşılıqlı əlaqə və fəaliyyətlərin miqyasını müəyyən etməlidirlər. İndi təlim prosesində müəllimlərin rolu, mövqeyi tamamilə dəyişməkdədir. Onlar yalnız yeni bilikləri ötürmür, eyni zamanda öyrənənlərin fəaliyyətini stimullaşdırmaq üçün skaffoldinq funksiyasını yerinə yetirir.

Feldhusenin müəllimlərin istedadlı uşaqlar üçün malik olmalı olduğu xüsusiyyətlər haqqında irəli sürdüyü nəzəriyyəyə əsaslanaraq üç cəhət mövcuddur:

- fəlsəfi fikirlər;
- peşəkar meyllər;
- şəxsi atributlar (Məmmədova, 2014: 97).

Fəlsəfi fikirlərdə ən vacib sayılan ölçülərə hörmət, məsuliyyət, çeviklik, empatiya və fərdi fərqlərə bağlılıq daxildir. Peşəkar meyllərin ölçülərinə təşkilatçılıq, həvəs, əlçatanlıq, əməkdaşlıq və rəhbərlik aiddir. Yüksək talantlı uşaqlarla iş zamanı bir sıra çətinliklər yaranır ki, bunların başlıca səbəbi müəllim pedaqoqların onların təlim prosesinə dair psixoloji hazırlığının olmamasıdır. Bəzi tədqiqatlar göstərmişdir ki, sərt və sistematik məktəb təlimi uşaqların bacarıq və qabiliyyətlərinin inkişafına müsbət təsir edir. Bu təsirin xarakteri müəllimin şəxsi keyfiyyətlərindən və şagirdlərin yaş psixoloji xüsusiyyətlərindən asılıdır. İstedadlı uşaqlar ilk baxışda digər həmyaşıdlarından fərqlənmirlər. Onları aşkar etmək xüsusi bilik və bacarıqlar tələb edir. Əksər müəllimlər belə öyrənənləri fərqləndirməyin elə də mürəkkəb olmadığını hesab edir. Onlarla iş zamanı yüksək məmnunluq hissinin yaranması bunu sübut edir.

Ümumtəhsil müəssisələrində oxuyan istedadlı şagirdlərin fəaliyyətində meydana çıxan çətinliklər birbaşa müəllim pedaqoqdan, onun şəxsi keyfiyyətlərindən və təcrübəsindən asılıdır. Bu baxımdan, məhz istedadlı şagirdlərlə işləyən müəllim şəxsiyyəti daim araşdırılan mövzulardan olmuşdur. M.M.Kaşanova, E.L.Yakovlev, A.M.Matyuşkin və digər alimlər öz əsərlərində məsələni işıqlandırmışdır. Onlar arasında belə bir fikir irəli sürülmüşdür ki, istedadlı uşaqlarda hansısa bacarığın təkmilləşdirilməsi onlara rəhbərlik edən müəllimin prosesə münasibətindən asılı olaraq dəyişir. Müəllim bu yolda şagirdi ruhlandırır, onu həvəsləndirməyə çalışırsa, əvəzində həmin şagirdin fəaliyyətində böyük ehtimalla irəliləyiş müşahidə olunacaqdır (Bəylərov, 2008: 20).

B.Q.Anayev belə nəticəyə gəlmişdir ki, yalnız yüksək pedaqoji səriştəyə malik müəllimlər sinifdə gizli istedadları aşakara çıxara və onlarla işləyə bilər. Bir çox tədqiqatçılar hazırkı müəllimlərin şagird fəaliyyətinin yalnız kəmiyyətini ölçməyə, onu qiymətləndirməyə maraqlı olduqlarını təsdiq edir. Onlar öyrənənlərin yaradıcılıq və başqa intellektual bacarıqlarını çox vaxt görməzdən gəlirlər. Təlimdə şagirdlərin akademik nailiyyəti onlar üçün daha çox önəm daşıyır (Knyaginina, Yanbarisova, 2019: 291).

Müasir dövrdə istedadlı şagirdlərin aşkar edilməsi, onların qabiliyyətlərinin inkişafı birbaşa əlaqədə olduqları müəllimdən asılıdır. Belə ki, bu uşaqlarla işləyən müəllim şəxsiyyətində bir sıra keyfiyyətlər öz əksini tapmalıdır ki, proses uğurla irəliləsin. Bura müəllimin peşəkar hazırlıq səviyyəsi, vəzifə və öhdəliklərini yerinə yetirmə səriştəsi, işində özgüvən hissinin olması və s. daxildir. İstedadlı uşaqlarla işləyən müəllimin sinifdə dərs müddətində sərgilədiyi əməllər və davranışı onun fəaliyyətinə verdiyi önəmi əks etdirir. Müəllimin tətbiq etdiyi metodlar, üsullar, fəal təlim mühitini necə formalaşdırması, öyrənənlərin fərdi, yaş və psixoloji xüsusiyyətlərinin nəzərə alınması istedadlı şagirdlərin növbəti inkişaf yolunu müəyyənləşdirməyə öz təsirini göstərir. Müəllimin uşaqlara olan münasibəti, onlara fərd kimi yanaşması, şagird şəxsiyyətinə bəslədiyi hörmət hər iki tərəf arasında sağlam psixoloji ünsiyyət atmosferi formalaşdırır. İstedadlı uşaqların müəllimi ilk öncə öz tədris etdiyi fənni dərindən bilməli və təlimdə həmin bilikləri onlara ötürməyi bacarmalıdır. Müəllimin sinifdə istifadə etdiyi iş üslubu da metodik baxımdan vacibdir. Məlumdur ki, uzun illərdən bəri müəllimyönümlü yanaşmanın nümayəndələri avtoritar üslubu yüksək qiymətləndirmiş və onun tətbiqi nəticəsində şagird üzərində hərtərəfli nəzarət əldə etmişlər. Lakin bu yanaşma müasir təlimdə öz uğursuzluğunu sübut etmişdir. İstedadlı şagirdlər də belə bir mühitdə qarşılıqlı əlaqədə ola bilməz, onlar yaradıcı fəaliyyətdən məhrum olar.

Bunun əksi olan demokratik üslub isə daha səmərəli nəticələrə nail olmağa kömək edir. Onun yalnız xüsusi talantlı uşaqlarla münasibətdə deyil, ümumiyyətlə, tədris prosesində bütün öyrənənlərlə ünsiyyət zamanı tətbiq edilməsi tövsiyyə olunur (Rollins, Mursky, 2009: 25). Bu üslub təhsildə həm müəllimin, həm də şagirdin bərabərhüquqlu iştirakını mümkünləşdirir. İki tərəf arasında sağlam əməkdaşlıq mühiti formalaşır və onlar bir-birlərinə hörmət və həssaslıqla yanaşırlar. İstedadlı şagirdlərin ehtiyac duyduqları fəallıq imkanının olması üçün məhz demokratik üslubdan faydalanmaq labüddür. Onun tətbiqi nəticəsində yaranmış təlim mühitində talantlı uşaqların yaradıcılıq qabiliyyəti və təxəyyülü dəyərləndirilir, idrakın bilik, emosional-affektiv və psixomotor sahələrinin inkişafının təmin edilməsi diqqət mərkəzində saxlanılır.

İstedadlı şagirdlərlə çalışarkən müəllim təklif və tənqidlərə açıq olmalı, bacarıqlı, bilikli fərdlərlə əlaqə zamanı narahatlıq keçirməməlidir. Onun uşaqlarla qarşılıqlı münasibəti qabiliyyətlərin optimal inkişafına yönəldilməli, köməklik, dəstək xarakteri daşımalıdır. Müəllim öz səriştəsinə və yaranan problemləri həll etmək bacarığına inam bəsləyir. Qəbul edilmiş qərarlara görə məsuliyyət daşımağa hazırdır və eyni zamanda yüksək ləyaqət hissi nümayiş etdirməyə qadirdir. O intellektual cəhətdən öz biliklərini artırmaq üçün həvəslə çalışır başqalarından öyrənməyə özünütəhsil və özünü təkmilləşdirməyə səy göstərir (Ağayev, 2005: 204).

Belə uşaqlar psixoloji cəhətdən həddindən artıq həssas olduqları üçün pedaqoq onlara yanaşma tərzini düzgün müəyyənləşdirməlidir. Onların maraq sahələrini bilməli, fərdi xüsusiyyətlərini ön planda tutaraq əks əlaqə yaratmalıdır. Bu uşaqlar, adətən digər həmyaşıdları ilə ünsiyyət qurmaqda xeyli çətinlik çəkirlər.

Onlarda şəxsiyyətlərarası ünsiyyət probleminə tez-tez rast gəlinir. Kənardan onları müşahidə etdikdə qeyri-standart davranışlar nümayiş etdirdiklərini görmək mümkündür. Onların öz daxili dünyaları o qədər zəngin, təxəyyülləri dərin olur ki, başqaları ilə əlaqə yaratmağa can atmırlar. Bu xüsusiyyət istedadlı şagirdləri tez-tez sinif yoldaşlarından təcrid edə bilər və nəticədə onlar özlərinə qapanar.

Təcrübə göstərir ki, istedadlı uşaqlarla işləyərkən ən vacib məqam müəllimin reflektiv mövqe tutmaq bacarığıdır. V.Panovun da qeyd etdiyi kimi başqalarını olduğu kimi qəbul etmək talantlı şagirdlərlə işin ən mühüm prinsiplərindən biridir. Pedaqoq ilk növbədə, qarşısındakı şagirdi bir fərd olaraq görür, onun xarakterik psixoloji xüsusiyyətlərini dəyişmədən işini planlaşdırır. Şagird və müəllim bir-birinə münasibətdə bərabərhüquqlu tərəfdaş, təhsil məkanında birgə fəaliyyətin iştirakçıları kimi çıxış edirlər.

Müəllimlərin peşəkar və şəxsi mövqeyinin formalaşması böyük önəm daşıyır. İstedadlı uşaqların tərbiyəsi və inkişafının psixoloji, didaktik və digər xüsusiyyətlərini nəzərə alaraq onlarla işləmək üçün müəllim hazırlığının əsas tələbi pedaqoji şüurun dəyişməsidir. Məhz bu, müəllimlik sahəsində əvvəllər formalaşmış qavrayış stereotiplərini (şagird, təhsil prosesi və özü haqqında)

ünsiyyət və davranış qarşılıqlı təsir üsullarının yenilənməsi ilə həyata keçə bilər. Talantlı uşaqlar özləri də bilmədən davranışları ilə qeyri-standart vəziyyətlər yarada bilər. Onların həlli üçün köhnəlmiş müəllim rolları nəinki faydasızdır, hətta uşaqlar üçün zərərlidir. Ənənəvi müəllim şüurunun ən çox yayılmış stereotiplərindən biri ondan ibarətdir ki, şagird təhsil prosesinin fəal subyekti deyil, ilkin olaraq, pedaqoji təsir obyekti kimi qəbul edilir.

Belə uşaqlarla əlaqədə olan təlimçilər bəzi nüansları nəzərə almalıdır:

- İstedad anlayışı haqqında məlumatlı olmalı;
- Müxtəlif növ istedad sahələrinin öyrənilməsi, onların inkişafı barədə biliklər;
- İntellektin müxtəlif növləri;
- Səmərəli təlim və fərdi proqramlar yaratmaq üçün lazım olan bacarıqlar;
- Audio, vizual, kinestetik öyrənənlər;
- Şagirdlərin öyrənməsinə maneə yaradan və onları motivasiya edən amillər;
- Beynin sağ və sol yarımkürələrinin fəaliyyəti (Van Tassel-Baska, Stambaugh, 2005: 212).

Təlim prosesində müəllim düzgün vaxt bölgüsü ilə maksimum şəkildə uşaqların fəallığını təmin etməyə şalışır. Dərsdə şagirdlərin danışıq müddəti müəllimdən çox olur. Pedaqoq onlara istiqamətləndirici suallar verməklə müzakirələrə qoşulmağa, öz fikir və mövqelərini bildirməyə həvəsləndirir. Bir çox sinif təcrübəsindən aydın olmuşdur ki, müəllimlər şagirdlərə sual ünvanlayır, ancaq onlar cavablarını bildirərkən pedaqoqun müdaxiləsi ilə qarşılaşırlar. İstedadlı şagirdlərlə işləyən zaman nəzərdə saxlamaq lazımdır ki, müəllim yalnız bilik mənbəyi rolunu oynamır, həmçinin psixoterapevt kimi uşaqları müşahidə edir, onların cavablarını diqqətlə dinləyərək qəbul edir və analiz aparır (Tirri, 2011: 61).

## Nəticə

Ümumiyyətlə,kistedadlı uşaqla müəllim arasında düzgün pedaqoji münasibətlərin qurulması olduqca məsuliyyətli və çətin prosesdir. Pedaqoq işini təşkil edərkən valideynlərlə, eyni zamanda psixoloqla yaxından əlaqə saxlamalıdır.

Uşaq davranışında müşahidə edilən hər hansı müsbət və ya mənfi dəyişiklik barədə valideynlər məlumatlandırılmalıdır. Şagirdin növbəti fəaliyyət sxemi haqqında qərar qəbul etmək, təlim proqramında təkmilləşdirmələr həyata keçirmək üçün mütəmadi olaraq məktəb psixoloqu, həmçinin metodistlə məsləhətləşmək lazımdır. Vaxtaşırı valideyn iclaslarının və görüşlərin keçirilməsi də müəllimə istedadlı şagirdlə işini planlaşdırmağa və əlverişli ünsiyyət mühiti yaratmağa kömək edəcəkdir.

## Ədəbiyyat


1. İstedad va qabiliyyət anlayışlarının mahiyyəti haqqında. (2009). Pedaqoji Universitet Xəbərləri, № 1, s.220-223.
2. İstedad probleminin pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu. (2010). Dil və ədəbiyyat, 2 (73), s.309-311.
3. Barbara, A.L. (1996). Serving others hooks gifted students on learning. Educational leadership, № 5, p.70-74.
4. Bəylərov, E.B. (2008). İstedadlı uşaqların psixoloji təminatı. Bakı: Aspoliqraf, 268 s.
5. Efklides, A. (2019). Gifted students and self-regulated learning: The MASRL model and its implications for SRL. High ability studies, № 30, p.79-102.
6. Kimberly, M.N. (2005). Exploring the intersections of sociocultural theory and gifted education. The journal of secondary gifted education. №1, p.48-55.
7. Məmmədova, S.K. (2014). Naxçıvan Muxtar Respublikasında İstedadlı Şagirdlərlə Aparılan İşlər. Naxçıvan: Əcəmi, 104 s.
8. Knyaginina, N.V., Yanbarisova, D.M. (2019). Supporting talented youth. Russian Social Science Review. № 4, p.292-313.
9. Rollins, K., Mursky, C. (2009). Rtl models for gifted children. Gifted Child Today. № 3, p.20-30.
10. Ağayev, Ə.Ə. (2005). Azərbaycan şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 521 s.

11. Van Tassel-Baska, J., Stambaugh, T. (2005). Challenges and possibilities for serving gifted learners in the regular classroom. Theory Into Practice, p.211-217.
12. Tirri, K.A. (2011). Combining excellence and ethics: Implications for moral education for the gifted. Helsinki: Roeper Review. № 1, p.59-64.

Göndərilib: 01.05.2023 Qəbul edilib: 22.06.2023